# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 502** **Bakı şəhəri, 17 noyabr 2017-ci il**

**"Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə**

"Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1180 nömrəli Fərmanının 3.5-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 10 mart tarixli 16 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 757; 2000, № 8 (III kitab), maddə 642; 2003, № 4, maddə 219; 2005, № 4, maddə 377; 2017, № 3, maddə 497, № 9, maddə 1719) 1-ci və 2-ci hissələri ləğv edilsin.

***Yaqub EYYUBOV***
***Azərbaycan Respublikası***
***Baş nazirinin birinci müavini***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.cabmin.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***